BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2008

# I ŞAH İSMAYIL – ZƏHİRƏDDİN BABUR ALYANSINA DAİR

Y.E.MƏMMƏDOVA
*Gəncə Dövlət Universiteti*

Ayrı-ayrı dövlətlərin siyasi, iqtisadi və mədəni əlaqələrinin öyrənilməsi tarix elminin qarşısında duran maraqlı məsələlərdən birini təşkil edir. Bu baxımdan XVI-XVII yüzilliklərdə Orta Şərqin ən əsas dövlətlərindən olan Səfəvilər və Böyük Moğollar arasında mövcud olmuş münasibətlərin tədqiqi olduqca mühümdür. Belə ki, Səfəvilərlə Moğollar arasında mövcud olan münasibətlər Səfəvilərin digər qonşu dövlətlərlə olan münasibətlərindən fərqli olmuşdur. Osmanlı imperiyası və Özbək dövləti ilə Səfəvilər arasında münasibətlər istər ərazi, istərsə də dini zəmində xeyli gərgin olsa da, Moğollarla münasibətlər dinc və mehriban qonşuluq zəminində idi. Bu münasibətlərin əsası isə hələ Böyük Moğollar dövləti yaranmamışdan xeyli əvvəl, bu dövlətin yaradıcısı Məhəmməd Zəhirəddin Baburun Kabul hakimi olduğu vaxtlarda qoyulmuşdu.

XVI yüzilliyin ilk onilliyi ərzində köçəri özbəklərin başçısı Məhəmməd Şeybani xan Teymuri əmirləri arasındakı çəkişmələrdən məharətlə istifadə edərək onların ərazilərini bir-birinin ardınca ələ keçirir. Şeybani xan 1507-ci ildə Heratı da tutduqdan sonra Səfəvilər dövlətini də hədələməyə başlayır, Şah İsmayıldan ona tabe olmağı tələb edir. Buna cavab olaraq Şah İsmayıl böyük qoşunla Xorasana doğru hərəkət edir və 1510-cu ilin sonunda Mərv yaxınlığında baş vermiş döyüşdə Şeybani xan məğlub edilir, özü isə öldürülür. Mərv qələbəsinin nəticəsində Herat, Mərv və Bəlx şəhərləri də daxil olmaqla bütün Xorasan və Amu-dəryaya qədər olan ərazilər qızılbaşların ixtiyarına keçir. Ələ keçən əsirlərin içərisində Baburun bacısı Xanzadəbəyimin də olduğunu bilən Şah İsmayıl ona ehtiramla yanaşır və xüsusi müşayiətçilərin əhatəsində qardaşının yanına yola salır. Babur özü bu haqda belə yazır: «Mənə görə onunla çox yaxşı rəftar edirlər və lazımi ədəb-ərkanla mənim yanıma göndərirlər» (1, s. 8).

Şah İsmayılın bu dostcasına hərəkətini məqsədli diplomatik addım kimi qiymətləndirmək doğru olmazdı. Çünki bu zaman qarşıda digər bir alternativ variant – özbəklərlə sülh bağlamaq imkanı da olduğundan, bu səmimi hərəkət çox güman ki, sadəcə olaraq sülalələr arasında əvvəllər də mövcud olmuş xoş münasibətlərlə bağlı idi.

Mərv döyüşündə özbəklərin məğlubiyyəti böyük əks-səda doğurur. Başçılarını itirmiş köçəri özbəklər vahimə içərisində Türküstana doğru geri çəkilirlər. Şeybanilərin Şah İsmayılın hücumları qarşısında çaşqınlığı onların arasındakı narazılıqla müşayiət olunurdu. Belə ki, Qədim Yasaya görə varis nəslin ağsaqqalı olmalı idi. Şeybani xan isə hələ öz

sağlığında oğlu Teymur Sultanı varis elan etsə də, hakimiyyəti onun əmisi Syunçi xan ələ keçirmişdi. Məhz bu zaman qızılbaş qoşunlarının qarşısında dayana biləcək qüvvə yox idi. Belə bir vəziyyət isə Teymurilər üçün olduqca əlverişli idi. Onlar öz ata-baba yurdlarının qaytarılması üçün bundan əlverişli şəraitin olmayacağını yaxşı başa düşürdülər. Elə buna görə də Teymuri nəslindən olan, daha çox Xan Mirzə adı ilə tanınan Sultan Üveys Sultan Hüseyn Bayqaradan sonra nəslin lideri olan Babura məktub yazaraq baş vermiş hadisələri ona bildirir: «sən öz qüvvələrinin avanqardını Qunduza sarı yönəltsən, mən tezliklə səninlə birləşəcəyəm və qəti ümid edirəm ki, tezliklə öz irsi ərazilərimizi əldə edəcəyik» (2, s. 25).

Onu da qeyd etmək lazımdır ki, Məvarənnəhrə yürüşün təşkil edilməsində Xan Mirzənin elə Babur qədər marağı vardı. Ona tabe olan Bədəxşan mülkündə hakimin maddi gəliri cüzi olduğundan, Xan Mirzə çox böyük çətinlik içərisində yaşayırdı. «Əlbəttə ki, onun bu çətinlikləri müxtəlif qruplaşmaların – Teymurilərin, Şeybanilərin və Səfəvilərin arasında amansız toqquşma meydanı olan bu vilayətin ümumi iqtisadi vəziyyətini əks etdirirdi» (3, s. 88). Xan Mirzənin əsas düşməni olan Şeybanilərin zəifədilməsi onun mövqeyini möhkəmləndirmək və yaxşılaşdırmaq cəhdini reallaşdıra bilərdi.

Babur Səmərqəndi və Fərqanəni itirdikdən sonra bir neçə dəfə ata-baba yurdunu, öz qanuni mülklərini geri qaytarmağa cəhd etmişdi. Lakin onun bütün cəhdləri uğursuzluqla nəticələndiyindən mövcud vəziyyətdən istifadə etməyə bilməzdi. Xan Mirzənin məktubunu alan kimi Babur dərhal, qışın ortaları, Hindquş dağ keçidlərinin qarla örtülü olmasına baxmayaraq, toplaya bildiyi qoşunla yola düşür. «Tarixçilər Baburun Kabildən Qunduza qədər olan yolu son dərəcə sürətlə keçidiyini qeyd edirlər. Yolun aşırımlardan və dərələrdən, təhlükəli dağ cığırlarından keçməsinə baxmayaraq Babur bir neçə gün ərzində Qunduza, Xan Mirzənin düşərgəsinə gəlir» (3, s. 90). Burada onu əmisi oğlu Xan Mirzə və Mərv məğlubiyyətindən sonra köçəri özbəklərdən ayrılan moğollar qarşılayır və onunla birləşirlər. Babur Qunduzda olarkən bacısı Xanzadəbəyim və Şah İsmaylın onu müşayiət etmək üçün ayırdığı dəstə də ora gəlir.

Babur yaxşı anlayırdı ki, Şeybanilər nə qədər zəifləsələr də, o, təkbaşına qələbə qazana bilməyəcəkdir. Buna görə də Səfəvilərlə əlaqə yaradaraq ittifaqa girmək onun üçün zəruri idi. Şah İsmayılın bu dostcasına hərəkəti isə onu özbəklərə qarşı asanlıqla ittifaq bağlamağa ümidləndirdiyindən Xan Mirzəni zəngin, bol hədiyyələrlə Şah İsmayılın yanına elçi göndərir. Səfəvi hökmdarı onu olduqca xoş qarşılamışdı.

Beləliklə, Şah İsmayılla ittifaq yaratmaq daha çox Babur üçün gərəkli idi. Şah İsmayılın ilk vaxtlar heç də onunla alyans yaratmaq haqda ciddi fikri yox idi. Yuxarıda göstərildiyi kimi, özbəklərlə sülh bağlamaq imkanı hələ də qüvvədə qalırdı. Həmçinin Şah İsmayıl tezliklə burada vəziyyəti qaydaya salaraq geri qayıtmaq niyyətində idi. Bir sözlə, bu dövrdə alyans yaratmaq Səfəvi şahı üçün heç də əlverişli deyildi. Başçılarını itirmiş, çaşqın vəziyyətdə olan və aralarında hakimiyyət uğrunda mübarizə gedən özbəklər şahın yaxınlaşması xəbərindən narahat olaraq onun yanına elçi göndərib Ceyhun çayı (Amu-dərya) sərhəd olmaqla sülh imzalanmasını təklif edirlər. Yuxarıda deyildiyi kimi, bu, Səfəvi hökmdarının maraqlarında idi. Buna görə də, Səfəvilərlə özbəklər arasında

sülh danışıqlarına başlanılır.

Həmin vaxt ərzində isə Babur əsas diqqətini ilк növbədə кöçəri özbəкlərdən Mehdi Sultanla Həmzə Sultanın haкim olduqları Hisar Şadmana yönəldir (4, s. 523). Hisar Şadmanın tutulmasının Babur üçün böyüк əhəmiyyəti vardı. Bu onun Məvarənnəhri fəth etməк arzusunu daha da alovlandırırdı. Laкin bunun üçün qüvvələri кifayət qədər olmadığından, yenidən Şah İsmayılın yanına elçi göndərərəк həm öz qələbəsini xəbər verir, həm də Məvarənnəhrdə onun haкimiyyətini tanımaq təəhhüdü ilə ondan yardım istəyir. Tarixçi Xondəmir Baburun Səfəvi şahından alacağı yardımın müqabilində ona tabe olmağa, Şah İsmayılın adına xütbə oxudub, pul кəsdirməyi vəd etdiyini yazır (4, s. 529)).

Paкistan tarixçisi Riyazül İslam Hisar Şadmanın ələ кeçirilməsinin şahın yanında Baburun nüfuzunun yüкsəldiyini və buna görə də özbəкlərlə apardığı sülh danışıqlarını кəsərəк ona yardım etməк qərarına gəldiyini hesab edir (5, s. 27-28).

Hər halda Şah İsmayıl özbəкlərlə sülh müqaviləsinin möhкəm olacağına, şeybanilərin Xorasanın itirilməsi ilə barışacaqlarına inanmırdı. Ölкənin şərq sərhədlərində özbəкlərin deyil, əvvəldən də yaxşı münasibətlərin mövcud olduğu teymurilərin olması Səfəvilər üçün daha əlverişli idi. Beləliкlə, Şah İsmayılla Babur arasında hərbi-siyasi alyans bağlanması reallaşır.

Özbəк tarixçisi S.Əzimcanova Şah İsmayılla Babur arasında hərbi-siyasi alyansın bir çox məsələlərinin aydın olmadığını yazır (3, s. 86-87). Laкin fiкrimizcə, burada qaranlıq, aydın olmayan məsələ yoxdur. Hərbi-siyasi ittifaq hər iкi tərəf üçün zəruri idi. Yuxarıda qeyd olunduğu кimi, Şah İsmayıla yenicə fəth olunmuş Xorasanı əldə saxlamağa, ölкəsinin şərq sərhədlərinin təhlüкəsizliyinə təminat yaratmış olurdu. Babur isə səfəvilərdən yardım alaraq itirilmiş ata-baba yurdlarını geri qaytarmağa çalışırdı. Baburla I Şah İsmayıl arasında ittifaqın yaradılmasında böyüк rol oynamış Xan Mirzə isə daha artıq var-dövlət əldə etməк istəyirdi.

Hərbi-siyasi alyansın şərtlərinə uyğun olaraq Şah İsmayıl özünün iкi əmirinin: Şahrux bəy Əfşar və Əhməd bəy Sufioğlunun başçılığı altında Babura hərbi yardım göndərir. Babur çox asanlıqla Səmərqənd taxtını ələ кeçirib, Məvarənnəhrdə öz haкimiyyətini bərqərar etdiкdən sonra o, öz yaxınlarını və silahdaşlarını səxavətlə müкafatlandırmaqla bərabər üzərinə götürdüyü öhdəliyi də yerinə yetirir. Şah İsmayılın adına xütbə oxutdurur, pul кəsdirir. Bu məsələ, yəni xütbə oxunması və üzərində şiə nişanları olan pulların кəsilməsi barədə mənbələrdə müxtəlif məlumatlar vardır. Müasir tədqiqatçıların da bu məsələyə münasibəti bir mənalı deyildir. Laкin bununla belə həmin hadisələrin bilavasitə şahidi olmuş tarixçi Xondəmirin xütbə oxunması və şiə nişanlı pulların кəsilməsi haqda verdiyi məlumatı doğru hesab etməк olar. Qeyd etməк lazımdır кi, bundan başqa şiə nişanlı, üzərində Şah İsmayılın və Baburun adları olan bir qızıl və dörd gümüş pul qeydə alınmışdır (6, s. 53). Sünni məzhəbli səmərqəndlilərin Baburdan narazılığı da onun üzərinə götürdüyü öhdəliкləri yerinə yetirdiyini bir daha sübut edir.

Bütün bunlarla yanaşı, Babur Şah İsmayılın onun кöməyinə göndərmiş olduğu Səfəvi qüvvələrinin Məvarənnəhrdən çıxarılmasına başlayır, Şahrux bəy Əfşarı və Əhməd bəy Sufioğlunu səxavətlə müкafatlandıraraq geri göndərir, Şah İsmayıl üçün hədiyyələr aparan əlavə dəstə

yola salır. Lakin Xondəmirin məlumatına görə vəkil Nəcmi-Saninin oraya yenicə göndərilmiş olan eşikağasıbaşı Məhəmmədcana «kifayət qədər diqqətlə» yanaşmır və məhz buna görə də o, Qumda Şah İsmayıl tərəfindən qəbul edilən zaman bildirir ki, qızılbaş əmirlərinin yardımı ilə Məvarənnəhrin bütün şəhərlərini ələ keçirən Babur çox məğrurlaşmışdır, onda düşmənçilik niyyətləri oyanıb və o, Səfəvilərlə ittifaqı pozmaq fikrindədir (4, s. 524). Bu məsələyə yalnız Məhəmmədcanın şəxsi narazılığı ilə bağlı yanaşmaq heç də doğru olmazdı. Çox güman ki, Məvarənnəhrin fəthindən sonra Baburda tədricən Səfəvilərlə ittifaqı pozmaq niyyəti baş qaldıra bilərdi. Səmərqənd tutulduqdan sonra Səfəvi qüvvələrinin dərhal geri göndərilməsi də ehtimal ki, bununla bağlı olmuşdur. S.Əzimcanova da etiraf edir ki, Babur Şah İsmayıla münasibətdə loyallığa riayət etsə də, eyni zamanda hər hansı bir formada qızılbaşların hərəkətləri ilə bağlı narazılığını bildirirdi (3, s. 97). Bütün bunları isə diqqətdən kənarda qoymaq olmazdı. Buna görə də vəkil Nəcmi-Saninin təşəbbüsü ilə Baburu cəzalandırmaq məqsədilə ehtiyat qüvvələrdən yeni qoşun toplanılır və onun başçılığı altında Məvarənnəhrə göndərilir. Eyni zamanda Xorasanda olan əmirlərə Nəcmi-Saniyə tabe olmaq əmri verilir.

Bu zaman isə Məvarənnəhrdə hadisələr tamam başqa istiqamətdə inkişaf etməyə başlayır. Hakimiyyəti ələ keçirdikdən sonra Məvarənnəhrdə Baburun mövqeyi ilk baxışda xeyli möhkəm görünürdü. Şeybanilərin və digər rəqiblərin hadisələrin gedişinə müdaxilə etmədən, dinc müşahidə apardığı, yerli əhalinin yeni hakimə münasibətinin normal olması güman olunurdu. Lakin əslində Baburun mövqeyi qeyri-real idi. Səfəvilərlə ittifaqı onu üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə, şiəliyi müdafiə etməyə məcbur edirdi. Təbii ki, belə münasibət sünniliyə çox bağlı olan Məvarənnəhr əhalisinin narazılığına səbəb olurdu. Tədricən əhali arasında antiteymuri əhval-ruhiyyə güclənməyə başlayır və Baburun nüfuzu aşağı düşürdü. Burada çox güman ki, Şeybanilərə meylli olan ruhanilərin təbliğatı da böyük rol oynayır. Onlar Baburun qızılbaşlarla olan ittifaqından məharətlə istifadə edərək, əhalini zorla şiəliyə cəlb ediləcəkləri ilə qorxudurdular. Babur qayıdarkən Şeybanilər dövründə itirmiş olduqları imtiyazlarını qaytarmağı nəzərdə tutan Səmərqənd feodallarının yuxarı təbəqəsi də Baburun Səfəvilərlə ittifaqından narazı idi.

Məvarənnəhrdə antiteymuri əhval-ruhiyyənin getdikcə artması özbək sultanlarından və xüsusilə də onların içərisində ən qətiyyətlisi olan Übeydulla xandan gizli qalmır. Öz qüvvələrinə inanan Übeydulla xanın qohumlarını Babura qarşı birgə çıxış etmək çağırışı cavabsız qalırdı. Bəziləri sadəcə olaraq Übeydulla xana gülür, digərləri isə onu inandırmağa çalışırdılar ki, bu yürüş mütləq uğursuzluqla başa çatacaqdır (3, s. 94-95). Lakin heç də deyildiyi kimi olmadı. Qul Məlik gölü yaxınlığındakı döyüşdə Baburun qüvvələri Übeydulla xana məğlub olur və bundan sonra Babur Səmərqəndi tərk edərək Hisar Şadmana çəkilir. Məğlubiyyət onu yenidən Səfəvilərdən yardım istəməyə məcbur edir. Bu məqsədlə, o, Bəlx hakimi Bayram bəy Qaramanlının yanına qasid göndərərək, kömək istəyir və Bayram bəy Qaramanlı əmir Sultan Məhəmməd Şirazinin başçılığı altında 300 nəfərlik bir qüvvə göndərir (4, s. 527).

Nəcmi-Saninin başçılığı ilə yeni qüvvələr Xorasana gələn zaman vəziyyət sabit deyildi. Məvarənnəhr yenidən itirilmişdi və özbəklər Səfəvilər üçün əvvəlkindən daha artıq təhlükə təşkil edirdilər. Buna görə

də, Nəcmi-Saninin qarşısına qoyulmuş ilkin məqsəd, yəni Baburun cəzalandırılması arxa plana keçir, eləcə də Babur qızılbaşlarla daha da yaxınlaşmağa məcbur olur.

Nəcmi-Sani burada mövcud olan vəziyyət haqda Şah İsmayıla heç bir məlumat vermir və öz qüvvələrinə həddən artıq güvənərək özbəkləri yenidən Məvarənnəhrdən çıxartmaq qərarına gəlir.

Nəcmi-Sani ilk əvvəl Herata gəldiyindən, Herat hakimi Hüseyn bəy Lələ Şamlu da ona qoşulur. Daha sonra Nəcmi-Sani Bəlx istiqamətində hərəkət edərək, burada əmir Qiyasəddini Hisar Şadmana, Baburun yanına göndərir. Yeni Səfəvi qüvvələrinin yaxınlaşması xəbəri özbəkləri geri çəkilməyə məcbur edir. Termez aşırımı yaxınlığında, Dərbəndi-Ahənin adlı yerdə Nəcmi-Sani Baburla görüşür (4, s. 527). Məvarənnəhrə yeni yürüş təşkil etmək qərara alınır. Siyasi hadisələrin gedişindəki sürətli dəyişikliklər siyasi xadimlərin də rollarının yerdəyişməsinə səbəb olmuşdu. Bu dövrə qədər Səfəvi sərkərdələri Baburun rəhbərliyi altında xidmət göstərsələr də, artıq Babur Nəcmi-Saniyə - yüksək rütbəli Səfəvi məmuruna tabe olmaq məcburiyyətində idi.

Müttəfiqlərin qarşısında duran ən önəmli vəzifə Məvarənnəhrin yenidən fəth edilməsi idi və bu məqsədlə yeni yürüş təşkil edilir. Xəzar qalasının hakimi Ağfulad Sultan müqavimət göstərməyin mənasız olduğunu anlayaraq təslim olduqdan sonra müttəfiqlər Qərşiyə doğru hərəkət edirlər. Qərşinin hakimi Şeyxim Mirzə təslim olmaqdan boyun qaçırır və ciddi müqavimət göstərir. Üç günlük mühasirədən sonra şəhər alınmış olur. Nəcmi-Sani burada düşünülməmiş addım ataraq, mənasız qəddarlığa yol verir. 15 minə yaxın Qərşi sakini kütləvi şəkildə qılıncdan keçirilir (4, s. 527-528). Bu isə yerli əhalidə qızılbaşlara və eləcə də onlarla müttəfiq olan Babura qarşı rəğbət doğuracaq hərəkət deyildi. Buna görə də müəyyən dərəcədə Babura meylli olan qüvvələr də ondan üz döndərirlər.

Qərşidən sonra müttəfiqlər özbəklərin əsas qüvvələrinin yerləşdiyi Buxaraya doğru istiqamət götürürlər. Onlar Buxaraya çatmamış Teymur Sultan və Küçkunci xanın oğlu Əbu Səidin başçılığı altında yeni qüvvələrin Canı bəylə Übeydulla xanın köməyinə gəlmələri xəbərini aldıqlarından, Bayram xan Qaramanlını onminlik bir qüvvə ilə onlara müqavimət göstərmək üçün göndərir. Özbəklər ona müqavimət göstərə bilməyərək Buxaradan təxminən altı killometrlik məsafədə olan Qəcduvan qalasına çəkilirlər. Bundan xəbər tutan Nəcmi-Sani qalan qoşunla oraya gəlib, qalanı mühasirəyə alır. Bu yerlərə yaxşı bələd olan Babur və Xacə Mahmud Sağərçı Nəcmi-Saniyə mühasirənin davam etdirilməsinin mənasız olduğunu bildirir və yaxınlaşmaqda olan qışı keçirmək üçün Qərşiyə, yaxud Xəzar qalasına çəkilməyi və yürüşün yazda davam etdirilməsini məsləhət görürlər. Lakin Nəcmi-Sani inadkarlıq göstərərək, bu məsləhətə qulaq asmadı və geri çəkilməyin özbəklər tərəfindən qorxaqlıq kimi qiymətləndiriləcəyini bildirdi (7). Həmçinin Nəcmi-Sanini müşayiət edən qızılbaş əmirləri də vəkillə razı deyildilər. Lakin Nəcmi-Sani bütün məsləhətləri və etirazları qəbul etməyərək, mühasirəni davam etdirir. 1512-ci ilin noyabrında Canı bəy və Übeydulla xanın başçılığı ilə özbəklər Buxaradan Qəcduvana doğru hərəkət edərək qaladakılarla birləşib döyüşə başlayırlar. Bu zaman ehtiyatda dayanan Babur döyüşə girmədən Hisar Şadmana doğru geri çəkilir. Bir çox tədqiqatçılar bu hərəkəti Nəcmi-Saninin onunla kobud rəftar etməsilə bağlayırlar. Doğrudur, Nəcmi-Sani

olduqca кobud, qəddar və eyni zamanda bacarıqsız bir sərкərdə idi. I Şah İsmayıl-Babur alyansının pozulmasında bunun da öz təsiri olmuşdur. Laкin bu Babura döyüş meydanını tərк edib qaçmağa əsas vermirdi. Baburun bu hərəкəti sonralar da hər iкi dövlət arasında münaqişəli situasiyalar yaranan zaman dəfələrlə xatırlanmışdır.

Beləliкlə, I Şah İsmayılla Babur arasındaкı ittifaq uğursuzluqla tamamlanır. Doğrudur, Şah İsmayıl Teymurilərlə əvvəlкi münasibətlərin bərpa olunmasına müəyyən cəhdlər edir. Laкin bu cəhdlər baş tutmur (3, s. 97-98). Babur daha iкi ilə qədər Qunduzda və ya ona yaxın yerlərdə qalır. Burada nə etdiyi məlum olmasa da, Məvarənnəhrin geri qaytarılması üçün yeni bir gözləməsini güman etməк olar. Laкin ata-baba yurdunu geri qaytarmağın mümкünsüz olduğunu anlayan Babur Kabilə dönür və əsas diqqətini Hindistana yönəldir (8).

S.Əzimcanova Qəcduvan məğlubiyyətindən sonra Şah İsmayılla Babur arasındaкı münasibətlərin кəsildiyini, Səfəvilərlə Moğollar arasında münasibətlərin çox-çox sonralar bərpa edildiyini yazır. Laкin bu heç də belə olmamışdır. Moğollar üçün özbəк təhlüкəsi hələ də qalmaqda idi. Bundan başqa Baburun Məvarənnəhrdəкi ata-baba mülкlərini geri qaytarmaq istəyi onu Səfəvilərlə yaxşı münasibətlərin saxlanılmasına sövq edirdi. Bunu Baburun özünün yazmış olduğu «Xatirat»ındaкı məlumatlar da təsdiq edir.

I Şah İsmayıl – Babur alyansının uğursuzluqla nəticələnməsinə baxmayaraq, onların dostluğu sonraкı nəsillər üçün nümunə olmuş və hər iкi sülalənin nümayəndələri arasındaкı məкtublaşmaları bunu bir daha sübut edir.

## QEYDLƏR


1. Kazi Zahireddin Muhammed Babur. Vekayi. Cild 1, Ankara: 1987.
2. Tarixi-Rəşidi. Sitat Riyazül İslamın «Tarixi rəvabeti İran-o hind» kitabından götürülüb.
3. Азимджанова С. Государство Бабура в Кабуле и в Индии. М.: 1977.
4. Qiyasəddin Xondəmir. Həbib-üs-siyər fi əxbari əfrad əl-bəşər. IV cild, Tehran: 1333.
5. Riyazül İslam. «Tarixi-rəvabeti-İran-o hind», Tehran: 1373.
6. Фарзалиев А.М., Мамедова Р. М. Сефевиды и Великие Моголы в мусульманской дипломатике. СПб. 2004.
7. Рассказ о царствование Шаха Исмаила I из «Такмилат аль-ахбар» Зейналадибина Али – в книге О.Эфендиева «Образование Азербайджанского Государства Сефевидов в начале XVI в.», Баку: 1961.
8. Hikmet Bayur. Teymur oğullları ve Babur hakkında tarihi özet, - Kazi Zahireddin Babur, Vekayi, cild 1, Ankara: 1987 .


## ОБ АЛЬЯНСЕ МЕЖДУ ШАХОМ ИСМАИЛОМ I И ЗАХИРАДДИНОМ БАБУРОМ


**Е.Е.МАМЕДОВА**


## РЕЗЮМЕ


В данной статье исследуется история возникновения альянса между Шах Исмаилом I и Бабуром. В этом альянсе каждый из сторон имела собственные интересы. Но большую заинтересованность проявлял Бабур, поскольку пытался вернуть наследствен-

ные земли в Мавереннахре. Несмотря на это, после Гаджуванской битвы альянс провалился. Попытки сторон восстановить бывший союз не удались. Но дальнейшие исторические события показали, что дружеские отношения продолжались и в период правления других правителей этих государств.

## ABOUT THE UNITY OF I SHAKH ISMAIL AND JAZIRADDIN BABUR

**E.E.MAMMADOVA**

**SUMMARY**

In given clause the history of occurrence, of an alliance between a Shakh Ismail I and Babur is investigated. In this union each party had own interests. But greater interest showed babur an tried to return the here ditary grounds in central Asia despite of unsuccessful end of the union, it has played a significant role the further sefevi-moqol attitudes. The Unity down feel after that battle Gadjuvan. The effort for restoring all the former Unity of both side. Afterwords historical event showed that friendship between this country lasted reqn of other rulers.